Azad Azərbaycan



3 dekabr / 2020

# Şəhid atası oğlunu qurban kəsərək qarşıladı





*Sədərək torpağı öz şəhid kəşfiyyatçı oğlunu qoynuna aldı*





*"Ölüm haqdır onsuz da bir gün öləcəyik, lakin şərəfli ölüm şəhidlik, hər ölümdən qiymətlidir"*

İmam Hüseyn (ə)

**Naxçıvan Muxtar Respublikasının Dəmir qala qapısı Sədərək Vətən müharibəsində daha bir şəhidini qoynuna aldı. Ancaq düşmən qoy sevinməsin. Vətən Müharibəsində başda Ali Baş Komandan İlham Əliyev olmaqla Müzəffər Ordumuz tərəfindən torpaqlarımız düşməndən azad olundu. İşğal olunmuş rayonlarımızda bayrağımız dalğalandı. Azərbaycan bütün dünyaya öz gücünü, yenilməzliyini, bir yumruq kimi birləşməsini də sübut etdi.**

Ancaq bu Vətən müharibəsində şəhidlərimiz də az olmadı. Belə şəhidlərimizdən biri də Ərtoğrul Nadirlidir.

Xatırladaq ki, Nadirli Ərtoğrul Hümbət oğlu 31 mart 1997-ci ildə Sədərək rayonu Qarağac kəndində anadan



olub. O, 2012-ci ildə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. 2015-ci ildə oranı əla qiymətlərlə bitirib. Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. O, 24 iyun 2019-cu ildə Ali Hərbi Məktəbi bitirib. Leytenant rütbəsi ilə Tovuz bölgəsinə göndərilib. Altı ay xidmətdən sonra Bakıya kursa göndərilib. Kursdan sonra komandanlıq tərəfindən Daşkəsən rayonuna göndərilib.

27 sentyabra qədər orada xidmət edib. Müharibə başlayanda Ərtoğrul Nadirli Daşkəsəndən cəbhəyə Goranboya göndərilib. Murovdağ yüksəkliyinin alınmasında iştirak edib. Kəlbəcərin istehkamı o qədər güclü olub ki, dörd nəfər kəşfiyyatçı kimi irəlidə gedənlərdən biri də o olub. Onların dördü də zabit idilər. Onlar istehkamlara bomba atmağa çalışıblar. Məcbur olublar ki, ermənilərlə əlbəyaxa vuruşsunlar. Və orada xeyli sayda erməni faşistlərini məhv edirlər. Ancaq son anda uzaq məsafədən snayperdən açılan atəş dörd zabitimizi də şəhadətə qovuşdurur. Şəhidlərimiz Daşkəsənlə Murovdağın arasında olan dərədə qalırlar. Arxa cəbhədən onlara köməyə gələn əsgərlərimiz atışma olduğundan dərəyə düşüb şəhid zabitlərimizi götürə bilmirlər. Çünki erməni qəsbkarları bizim əsgərləri snayperlə vururdular…

Nəhayət gecə qaranlığında dərədən şəhid olmuş zabitlərimizi çıxarmağa müvəffəq olunur.

Heydər Əliyev adına hava limanında böyük izdihamla vətənpərvər övladlarımız təyyarə ilə sədərəkli şəhidimizi öz yurdlarına göndərirlər. Naxçıvan hava limanında da şəhidlərimizi karvanlar müşahidə edib.

**Sədərəkdə isə şəhidimizi Sədərək ictimaiyyəti və İcra Hakimiyyəti qarşılayıblar və dəfndə iştirak ediblər. Ürək ağrıdan mənzərə də məhz orada yaşanıb. Nadirli Ərtoğrulun atası Hümbət Rzayev şəhid oğlunu qurban kəsərək qarşılayıb.**



**Hacı Tofiq SEYİDZADƏ**